# AZƏRBAYCAN RESPUBLIKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ İLƏ LİTVA RESPUBLİKASININ SOSİAL TƏMİNAT VƏ ƏMƏK NAZİRLİYİ ARASINDA ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Litva Respublikasının Sosial Təminat və Əmək Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq),

- İki ölkə arasında əmək, məşğulluq, əhalinin sosial müdafiəsi sahələrində fəal əlaqələr yaratmaq və inkişaf etdirmək niyyətlərini ifadə edərək,

- Azərbaycan Respublikası və Litva Respublikası arasında əməkdaşlıq üçün mövcud potensiala əsaslanaraq,

- Tərəflərin ən qabaqcıl təcrübələrini paylaşmaqla, qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində öz səylərini birləşdirmək qərarını bir daha təsdiqləyərək,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər öz səlahiyyətləri çərçivəsində və milli qanunvericiliklərinə uyğun olaraq aşağıdakı əsas sahələr üzrə əməkdaşlıq edirlər:

1. əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahələrində müvafiq qanunvericiliyin təkmilləşdirilməsi;
2. müəssisələr tərəfindən Əmək Məcəlləsinə və əməyin mühafizəsi və işçilərin sağlamlığı, eyni zamanda əmək münasibətlərini tənzimləyən digər normativ hüquqi aktların tələblərinə əməl olunmasına nəzarət, onların pozulmasının qarşısının alınması;
3. müəssisələrdə peşə risklərinin qiymətləndirilməsi;
4. sosial tərəfdaşlar arasında üçtərəfli əməkdaşlıq;
5. məşğulluq xidmətlərinin səmərəliliyinin təkmilləşdirilməsi, məşğulluğa dəstək proqramları və işsiz və işaxtaran vətəndaşların məşğulluq imkanlarının genişləndirilməsinə istiqamətlənən aktiv əmək bazarı siyasətlərinin hazırlanması;
6. sosial müdafiəyə xüsusi ehtiyacı olan qrupların və gənclərin əmək bazarına inteqrasiyasına istiqamətlənən siyasətlərin hazırlanması;
7. əmək miqrasiyası proseslərinin tənzimlənməsi və əmək bazarında miqrantların hüquqlarının təmin olunmasının monitorinqi;

8. sosial sığorta və pensiya təminatı siyasətinin təkmilləşdirilməsi;
9. əlilliyi olan şəxslərin sosial və məşğulluq problemlərinin həlli ilə əlaqədar məsələlər də daxil olmaqla əlilliklə bağlı siyasətin təkmilləşdirilməsi, əlilliyin qiymətləndirilməsi sistemi, peşə və sosial reabilitasiya;
10. sosial müdafiəyə xüsusi ehtiyacı olan qruplar üçün sosial xidmətlərin təşkili və təmin olunması;
11. hər bir Tərəfin məqsədlərinə və bu Sazişin mahiyyətinə uyğun olan digər aidiyyəti məsələlər.

**Maddə 2**

Tərəflər aşağıdakı formalarda əməkdaşlıq edirlər:

1. Tərəflərin fəaliyyət sahələrinə aid olan aidiyyəti qanunvericilik və digər müvafiq sənədlərin, informasiya-analitik materialların və elmi tədqiqatların nəticələrinin mübadiləsi;
2. rəhbərlik və mütəxəssis səviyyəsində səfərlərin təşkili;
3. beynəlxalq təşkilatların iştirakı ilə proqram və layihələrin həyata keçirilməsi;
4. Tərəflərin səlahiyyətləri çərçivəsində müəyyənləşdirdikləri əməkdaşlığın istənilən digər forması.

**Maddə 3**

Bu Sazişin həyata keçirilməsi ilə bağlı tələb olunan vəsait Tərəflərin müvafiq il üçün ayrılmış büdcə təxsisatları daxilində və müvafiq qanunvericiliklərlə qadağan olunmayan digər mənbələr hesabına həyata keçirilir.

Saziş çərçivəsində nümayəndə heyəti və mütəxəssislərin səfər xərcləri göndərən Tərəfin hesabına və müvafiq milli qanunvericiliyin müddəalarına uyğun həyata keçirilir.

**Maddə 4**

Bu Sazişin icrasının əlaqələndirilməsi üzrə Tərəflərin cavabdeh qurumları aşağıdakılardır:

a) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən – Beynəlxalq əlaqələr şöbəsi.

b) Litva Respublikasının Sosial Təminat və Əmək Nazirliyi tərəfindən – Beynəlxalq və Avropa İttifaqı işləri sektoru;

**Maddə 5**

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavə və dəyişikliklər edilə bilər. Bu əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdirilir və 8-ci maddədə nəzərdə tutulan prosedura uyğun olaraq qüvvəyə minir.

**Maddə 6**

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin tərəfdar çıxdıqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

**Maddə 7**

Bu Sazişin təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

**Maddə 8**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq daxili prosedurların tamamlanmasının təsdiqi barədə Azərbaycan tərəfinin diplomatik kanallar vasitəsilə göndərdiyi yazılı bildirişin alındığı tarixdə qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişi ləğv etmək niyyəti barədə ən azı 6 (altı) ay əvvəlcədən yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat vermədiyi təqdirdə, Saziş avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

_________şəhərində, “___” __________201__-cu il tarixində, hər biri Azərbaycan, Litva və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətnə üstünlük verilir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından** | **Litva Respublikasının Sosial Təminat və Əmək Nazirliyi adından** |